# Paşinyanın "sülh kəsişməsi" layihəsi boşboğazlıqdan başqa bir şey deyil

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələri üzərində qazandığı misilsiz Zəfər tariximizdə yeni şərəfli səhifələr açdı.

Həm regionda, həm də dünyada yeni reallıqlar yaratdı. Bu reallıqlar ölkəmizin dünyada nüfuzunu daha da artırdı. Amma müharibədə biabırcasına məğlub edilmiş Ermənistan bu reallıqları qəbul etmək istəmir.

Rəsmi İrəvan dörd ildən çoxdur ki, 10 noyabr 2020-ci il tarixdə imzaladığı kapitulyasiya aktına əsasən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır. Dünya ictimaiyyətini aldatmaq üçün müxtəlif bəhanələr uydurur, inandırıcı olmayan səbəblər göstərir. Arxasında dayanan Qərb ölkələri özlərinə sərf etdiyinə görə bu uydurmaların mahiyyətinə varmadan onları həqiqət kimi qəbul edərək ikiəlli dəstəkləyir. Müxtəlif yollar və vasitələrlə Ermənistana hərtərəfli yardım göstərir, işğalçı ölkənin ordusunu gücləndirir.

Ermənistanın baş naziri Nikol Paşinyan daim beynəlxalq səviyyədə keçirilən tədbir və görüşlərdə populist, reallıqdan uzaq olan çıxışları ilə diqqəti özünə cəlb etməyə çalışır. Bunun üçün xəyallar qurur və bu xəyalları dünyaya sırımaq üçün dəridən-qabıqdan çıxır. Baş nazir Davosda dediyi yalan sözləri, uydurma fikirləri ilə yenə də beynəlxalq təşkilatları aldatmağa, çaşdırmağa çalışıb. Özünü "sülh göyərçini" kimi göstərərək deyib ki, Azərbaycanla davamlı sülhə nail olduqdan sonra "sülh kəsişməsi" layihəsi üzərində işləməyə başlayacaqlar. Baş nazir bu uydurma sözləri ilə özünü sülhə dəstək verən birisi kimi göstərir. Əslində isə Cənubi Qafqazda sülhə mane olan, Azərbaycanla sülh danışıqlarından boyun qaçıran, getdikcə vəziyyəti gərginləşdirən, Fransadan, Hindistandan silah alan rəsmi İrəvandır. Göründüyü kimi, Paşinyan daha çox beynəlxalq ictimaiyyəti aldatmaq üçün populist bəyanatlar verir, həqiqətin üstünü yalanlarla örtməyə çalışır.

Paşinyanın dilə gətirdiyi "sülh kəsişməsi" layihəsi yalnız və yalnız Ermənistanın daxili maraqlarına, məkrli niyyətinə xidmət edir. Çünki bu layihə Qərb dairələrinin regionda təsir dairəsinin artırılmasına əlverişli şərait yaradır. Baş nazirin gecələr də yuxusundan çıxmayan "sülh kəsişməsi" regiona əmin-amanlıq gətirməyəcək, yalnız və yalnız Qərb ölkələrinin Ermənistana gəlməsi üçün qapıları geniş açacaq. Deməli, bu layihə yalnız iqtisadi deyil, həm də gələcək geosiyasi dəyişikliklərə gətirib çıxaracaq. Müşahidələr göstərir ki, ümumiyyətlə, Ermənistanın indiki həm iqtisadi, həm də siyasi vəziyyəti bu cür iri layihələrin həyata keçirilməsi üçün yetərli deyil. Yəni ölkədə buna imkan və şərait yoxdur.



Şərait və imkan olmayan yerdə isə belə layihələrdən dəm vurmaq boşboğazlıqdan başqa bir şey deyil.

Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışı zamanı dediyi fikirlər Ermənistanın baş naziri Nikol Paşinyanın beynəlxalq arenada apardığı populist siyasətinə qarşı tutarlı cavab oldu. Dövlətimizin başçısı "sülh kəsişməsi" layihəsinin yenidən gündəmə gətirilməsini sərt şəkildə tənqid edərək bildirdi: "İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur. Yəqin ki, siz də eşitmisiniz, dırnaqarası "sülh kəsişməsi" layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq."

Azərbaycanın beynəlxalq nüfuzu gündən-günə artmaqdadır. Daim inkişafda, tərəqqidə olan ölkəmiz dünyada söz sahibinə çevrilib. Azərbaycanın razılığı olmadan regionda heç bir beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilə bilməz. Təbiidir ki, bunu rəsmi İrəvan da yaxşı bilir. Prezident İlham Əliyev müşavirədə çıxışı zamanı bu vacib məsələyə toxunarkən Ermənistana səslənərək demişdir: "Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır. Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o bəndə diqqət yetirsin. Yenə də deyirəm, onların dırnaqarası layihəsi Azərbaycansız tamamilə əhəmiyyətsizdir. Sadəcə olaraq, vaxt uzatmaqla məşğuldurlar, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğuldurlar. Yenə də Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac veriblər. Bunun nəticəsində faktiki olaraq bu günə qədər Azərbaycanın ayrılmaz hissəsi - Naxçıvan Muxtar Respublikası ilə bizim ən qısa və ən rahat bağlantımız yoxdur".

Dövlətimizin başçısı nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə onu da bildirdi ki, bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil. "Hazırda bizim ərazimizdən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır. Yüklərin daha səmərəli daşınması üçün fiziki infrastrukturla yanaşı, digər addımlar da atılır, o cümlədən rəqəmsallaşma məsələlərinə diqqət göstərilir. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılmışdır və ortaq müəssisələr, müştərək müəssisələr qurulmuşdur. Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir".

Azərbaycanın uğurla həyata keçirdiyi siyasət yalnız və yalnız dünyada və regionda sülhə, əmin-amanlığa xidmət edir. Ölkəmiz həmişə bəşəri dəyərlərə töhfə verən beynəlxalq əhəmiyyətli layihələrin icrasına böyük maraq göstərir. Zəngəzur dəhlizi bu istiqamətdə atılan mühüm addım olmaqla həm regionun, həm də dünyanın iqtisadi inkişafına müsbət təsir göstərəcək. Ermənistan rəhbərliyi reallıqdan uzaq olan boş bəyanatlar səsləndirməkdənsə, 10 noyabr Bəyanatında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsə, daha yaxşı olar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.-31 yanvar (№21).- S.8.